Uşaqlar dünyanın hər yerində gözəldir. Dinindən, irqindən, millətindən asılı olmayaraq, bütün uşaqların qayğısız yaşamağa və xoşbəxt böyüməyə haqqı var. Amma dünya bu haqqı onlara yetərincə verirmi? Təəssüf ki, yox! Bu gün Yer kürəsinin çox yerində aramsız münaqişə və müharibələr gedir. Nəticədə minlərlə uşaq həlak olur, yetim, gözü yaşlı qalır. Afrikada, Asiyada, Latın Amerikasında aclıqdan, səfalət və xəstəliklərdən olmazın əziyyətlər çəkən uşaqlar məgər azdır?!

Bəli, nə qədər ki, dünya uşaqları layiqincə qoruya bilmir, bəşəriyyət arzu etdiyi yüksək tərəqqi və əsl intibaha çata bilməz. Dünyanın sabahı uşaqlardır. Bu həqiqəti güclü-gücsüz hər kəsin dərk etməsi vacibdir. Təsadüf deyil ki, tarix boyu alim və ziyalılar, filosoflar dönə-dönə uşaqların, yeniyetmə və gənclərin sağlam və xoşbəxt böyümələrinin dünyanın taleyi üçün son dərəcə vacib olduğunu qeyd ediblər.

XX əsrin əvvəllərindən başlayaraq, uşaqların hüquq və azadlıqlarının qorunması istiqamətində praktik addımlar atılmağa başlanılıb. Birinci dünya müharibəsinin dəhşətlərindən sarsılan ingiltərəli xeyriyyəçi Eglantyne Djebb uşaqların xüsusi müdafiəyə ehtiyacı olduğunu yaxşı dərk edərək, bacısı Doroti Bakston ilə birlikdə 1919-cu ildə Londonda “Uşaqlara Yardım Fondu”nun əsasını qoymuşdu. E.Djebbin təşəbbüsü ilə 1924-cü ildə ilk dəfə olaraq uşaqların hüquqlarını təmin edən bəyannamə qəbul edilmişdir. Sənəddə deyilirdi ki, “bəşəriyyət uşaqları ən yaxşı şeylərlə təmin etməyə borcludur”.

1925-ci ildə Cenevrədə uşaq hüquqlarının qorunması ilə bağlı beynəlxalq konfrans keçirildi. Məhz həmin tədbirdə hər il 1 iyunun bütün dünyada bayram kimi qeyd edilməsi təklif olundu. İkinci dünya savaşından sonra uşaqların təhlükəsizliyi ən önəmli mövzulardan birinə çevrildi. 1949-cu ildə Parisdə keçirilən beynəlxalq konqresdə dünyanın uşaqlar üçün təhlükəsiz yerə çevrilməsi üçün çağırışlar edildi, qərar və qətnamələr qəbul olundu.

BMT Baş Assambleyası tərəfindən 1950-ci ildə hər il 1 iyunun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunması barədə rəsmi qərar qəbul edildi. Bir müddət sonra BMT-nin Baş Assambleyası Uşaq Hüquqları Konvensiyasını qəbul etdi.

Bütün bu qərar və qətnamələrə rəğmən, təəssüf ki, dünyada uşaqların qayğı və problemləri azalmır, əksinə, günbəgün artır. Hesablanıb ki, indi planetimizdə altı aydan iki yaşa qədər olan hər 3 uşaqdan 2-si kifayət qədər normal qidalanmır. 149 milyon uşaq boy ləngiməsindən əziyyət çəkir. 50 milyon uşaq həddən artıq arıqdır. 340 milyon uşaq, yaxud hər iki uşaqdan biri A vitamini və digər vitamin və qida maddələrinin çatışmazlığından əziyyət çəkir. 40 milyon uşaq artıq çəkilidir, piylənmədən əziyyət çəkir. Bu hallar uşaqları zəif beyin inkişafı, zəif dərketmə, zəif immunitet, infeksiyaların artması və bir çox hallarda ölüm riski ilə üzləşdirir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, ötən il dünyada 2-17 yaş arası bir milyarda yaxın uşaq fiziki və psixoloji zorakılığa məruz qalıb. Son illər Əfqanıstan, Suriya, İraq, Liviya və digər ölkələrdə tüğyan edən zorakılıqların şahidləri olan körpə və uşaqların ağır psixoloji durumunu təsəvvür etmək çətin deyil!

Dünyada indi uşaqların hüquqlarını qoruyan təşkilatlar çoxdur. Onların ən böyüyü və nüfuzlusu UNICEF-dir. BMT çərçivəsində geniş fəaliyyət göstərən bu təşkilat Azərbaycan da daxil olmaqla dünyanın 190 ölkəsində uşaq hüquqlarını dəstəkləyir və qorumağa çalışır. Lakin bu istiqamətdə çətin çağırışların öhdəsindən tamamilə gəlmək mümkün deyil.

Bu yaxınlarda UNİCEF-in rəsmisi bildirib ki, son bir neçə onillik ərzində bütün texnoloji, mədəni və sosial irəliləyişlərə baxmayaraq, dünya, həqiqətən mühüm olan məsələni gözdən qaçırır: uşaqlar pis qidalanırsa, deməli onlar pis yaşayırlar. Milyonlarla uşaq zərərli qidalardan istifadə edir, çünki seçim etmək imkanları yoxdur.

Çağdaş dünyanın maraqlı təzadları üzə çıxır. İnternet uşaqların savadlı böyümələri üçün geniş imkanlar açır, eyni zamanda, internet aludəçiliyi onların səhhətinə mənfi təsir göstərir. Beləliklə, bu gün interneti uşaqlarımız üçün daha təhlükəsiz etmək üçün düşünməliyik, lakin hər şeydən önəmlisi odur ki, uşaq və yeniyetmələr real dünyada olduğu qədər, virtual dünyanın üstünlükləri ilə bərabər, təhdidlərindən xəbərdar olmalıdırlar.

Böyük rus mütəfəkkiri Fyodor Dostoyevski yazırdı ki, uşaq dünyanın ən böyük səadətidir. Bəşəriyyət o zaman xoşbəxt ola bilər ki, dünyanın hər bir ölkəsində, Yer kürəsinin hər bir guşəsində uşaqların xoşbəxt və sağlam böyümələri üçün real və bərabər imkanlar yaradılsın. Dünya uşaqlarının təbəssümü ilə daha gözəldir. Yer üzünün bütün böyük sakinləri, sözüm sizədir: Gəlin, əl-ələ verib uşaqların, saf, məsum dünyalarını daha da gözəlləşdirək!

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 1 iyun.- S.13.